# Ümumdünya Əməyin Mühafizəsi Günü münasibətilə





**AMEA-nın Rəyasət Heyəti aparatı və AMEA Azad Həmkarlar İttifaqının birgə təşkilatçılığı ilə 28 aprel - Ümumdünya Əməyin Mühafizəsi Günü münasibətilə tədbir keçirilib.**

Tədbiri giriş sözü ilə AMEA-nın Rəyasət Heyəti aparatının İnsan resursları şöbəsinin müdiri, Həmkarlar Təşkilatının sədri filologiya üzrə fəlsəfə doktoru Aynur Mahmud açaraq diqqətə çatdırıb ki, Azərbaycanda dövlətin sosial siyasətinin əsas məqsədlərindən biri olan əməyin mühafizəsi sahəsində bir çox normativ sənədlər qəbul edilib və Azərbaycan Respublikasının Əmək Məcəlləsi və digər normativ sənədlərlə əməyin mühafizəsi sahəsində milli qanunvericilik yaradılıb. Beynəlxalq Əmək Təşkilatının (BƏT) əməyin mühafizəsi ilə bağlı Konvensiyaları dövlətimiz tərəfindən qəbul edilib və bu sahədə milli qanunvericiliyimiz təkmilləşdirilməkdə davam edir.

Günün əhəmiyyətindən söz açan filologiya üzrə fəlsəfə doktoru Aynur Mahmud qeyd edib ki, işçilərin həyat və sağlamlığının qorunması üçün təhlükəsiz əmək şəraitinin yaradılması, istehsalat qəzalarının qarşısının alınması üçün profilaktik tədbirlərin görülməsi məsələsinə ictimaiyyətin diqqətinin artırılması məqsədilə Beynəlxalq Əmək Təşkilatı 2003-cü ildə 28 apreli Ümumdünya Əməyin Mühafizəsi Günü kimi elan edib. Bütün dünyada olduğu kimi, Azərbaycanda da hər il Ümumdünya Əməyin Mühafizəsi Günü qeyd edilir.

Bildirib ki, Beynəlxalq Əmək Təşkilatı "Generativ süni intellekt və iş yerləri: işlərin kəmiyyət və keyfiyyətinə potensial təsirlərin qlobal təhlili" (Generative AI and Jobs: A global analysis of potential effects on job quantity and quality) başlıqlı hesabatını yayımlayıb. BƏT-in apardığı yeni araşdırmanın müəllifləri belə qənaətə gəliblər ki, generativ süni intellekt (AI) iş yerlərinin azalmasına deyil, yaradılmasına töhfə verir, çünki o, insanları tamamilə əvəz etmir, yalnız fərdi tapşırıqların icrasını avtomatlaşdırır.

O, həmçinin AMEA-nın Rəyasət Heyəti aparatında əməyin mühafizəsi və təhlükəsizlik texnikası işlərinin vəziyyəti və qarşıda duran problemlər barədə məlumat verib.

Daha sonra AMEA Azad Həmkarlar İttifaqının əməyin texniki müfəttişi Həsənqulu Qurbanov və AMEA-nın Rəyasət Heyəti aparatının Təsərrüfat işlərinin təşkili şöbəsinin əməyin mühafizəsi üzrə baş mütəxəssisi Cavid Qocayev iş yerlərində əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydalarına riayət etməyin əhəmiyyətindən, işçilərin təlimatlandırılmasının vacibliyindən və AMEA-nın Rəyasət Heyəti aparatında bu sahədə maarifləndirmə işinin hazırkı vəziyyətindən söz açıb, əməyin mühafizəsi xidməti işinin təşkilinə dair tövsiyələrini verib və risklərin qarşısının alınması üçün görüləcək işlərdən danışıblar.

Sonda qeyd olunan məsələlər ətrafında iştirakçıların sualları cavablandırılıb.

Elm .- 2025.- 2 may(№15).- S.5.